***O, QALİB YAŞADI***

Bir evdən gedən var, bir eldən gedən,
Evdən də, eldən də gedənə rəhmət.
Ömrünü-gününü xalqın yolunda
Əbədi bir məşəl edənə rəhmət.

Xalqa fəda gedər son misqal qanı,
Zirvəyə çağırar, zirvəyə səslər.
Sağ ikən varlığı, cismi, ünvanı,
Öləndə ölümü sevilən kəslər.

Arzusu, əməli, eşqi yolunda
Əritdi ömrünü gilə-gilə O.
Qəbrə qoyulmadı, ana torpağın,
Girdi söykəyinə gülə-gülə O.

O qalib yaşadı, köçdü zəfərlə,
Demərəm zəhmətdən usandı, doydu.
Vətən torpağını qəbriylə belə,
Bir az da dikəldib ayağa qoydu.

***Sərvaz Hüseynoğlu***

***Günəşə qovuşmaq istəyirəm mə! -  B.: Çinar-Çap, 2008. – S. 28.***